Zeynəlabidin Bəhrami

# Tibbur-Rəsul (Peyğəmbər təbabəti)

Qidanı dörd şey kamilləşdirər...

Həzrət Peyğəmbər (s) buyurur: Təam üçün dörd şey olsa təam kamil olar: Halal olsun, süfrəyə çox əl uzansın, Allahın adı ilə başlanılsın və Allaha həmd ilə sona çatsın.

Dörd şeyə narahat olmayın...

Həzrət Peyğəmbər (s) buyurur: Dörd şeyə görə narahat olmayın, onlar başqa dörd şeyə faydalıdır:

1.Zökəmi pis bilməyin, zökəm cüzamdan amanda saxlayar;

2.Çibanı pis saymayın, ala (vitiliqo) uzaqlaşdırar ;

3.Qusmaq və göz ağrısını pis saymayın, bunlar korluğun qarşısını alar;

4.Oskürəyi pis saymayın, iflicə mane olar.

Başqa bir yerdə Həzrət (s) buyurur: Kimin başında cüzamdan bir damar olsa, Allah zökəm göndərsə cüzam aradan qalxar. Kim özündə cüzam görüb addım atmasa Allah zökəmlə onu sağaldar.

Necə yemək, necə içmək?

Həzrət Peyğəmbər (s) süfrədə öz qarşısında olanlardan yeyər, içəndə sağ tərəfdə olanlardan içərdi. Görən olmadı ki, Həzrət (s) arxasını bir şeyə söykəyib yesin. Bir dəfə belə hal olmuşdu və Həzrət Peyğəmbər (s) demişdi: “Pərvərdigara mən Sənin bəndən və rəsulunam.”

Badımcanın faydası var?

Həzrət Peyğəmbər (s) Cabirin evində idi. Süfrəyə badımcan gətirdilər. Həzrət yeməyə başladı. Cabir dedi ki, badımcanda istilik var. Həzrət (s) buyurdu: Ey Cabir belə deyil.

Bu Allaha iman gətirmiş ilk bitkidir. Onu qaynadın, bişirin, ona zeytun yağı və qatıq vurun. Bu halda insanda hikməti artırar.

Ağ geyim...

Həzrət Peyğəmbər (s) buyurur: Ağ geyinin, bu ürəkaçandır. Ölülərinizi ağla kəfənləyin.

Xöş qoxu və ürək...

Həzrət Peyğəmbər (s) buyurur: Xoş qoxu ürəyi gücləndirir.

Saçı qısaltmaq...

Həzrət Peyğəmbər (s) buyurur: Bığınızı, bədən üzvlərinizin tükünü uzanmağa qoymayın. Şeytan orada yuva qurur... Bığınızı qısaldın, saqqalınızı uzadın. Özünüzü yəhudilərə bənzətməyin.

Qabın üzərini örtmək...

Həzrət Peyğəmbər (s) buyurur: Su və xörək qablarının üstünü örtün. Bilin ki, şeytanlar maneələri keçə bilmir. Onlar gün batandan arada dolaşmağa başlayır.

Halal qazanc və halal təam...

Həzrət Peyğəmbər (s) buyurur: İbadət yetmiş qisimdir, onun ən üstünü halal ruzi qazanmaqdır... Başqa bir məqamda Həzrət (s) buyurur: Qırx gün halal yiyən insanın qəlbini Allah nuraniləşdirər... Kim halal yesə Allah başının üzərində bir mələk qərar verər. Bu mələk insan süfrədən uzaqlaşana qədər ona bağışlanma diləyər... Bir dirhəmlik haramdan imtina etmək Allah üçün yetmiş qəbul olunmuş Həccə bərabərdir.

Haram qidanın cism və ruha təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Duasının qəbul olunmasını istəyən kəs qazancını və qidasını haramdan təmizləməlidir... Bir təkə haram qırx gecə namaz və duanın qəbuluna imkan verməz. Bədəndə haramdan cücərmiş ət cəhənnəm oduna layiqdir.

Şərabın haram olması...

Həzrət Peyğəmbər (s) buyurur: Kim şərab içsə qırx gün ibadəti qəbul olmaz. Bu qırx gündə dünyadan getsə kafir kimi gedib...

Səkkiz qrupun namazı qəbul deyil: Əri qarşısında vəzifəsini yerinə yetirməkdən imtina edən, ərini qəzəbləndirən qadın, zəkat ödəməyən kəs, namaz üçün dəstəmaz almayan şəxs, büluğ həddinə çatıb örtüksüz namaz qılan qız, camaat namazında zorla imam dayanan şəxs, məst adam, sidik və təbii ehtiyacını zorla saxlayıb namaz qılan adam.

Məscidin pak saxlanılması...

Həzrət Peyğəmbər (s) buyurur: Qəbrinin qaranlıq olmasını istəməyən şəxs məscidləri işıqlandırmağa çalışsın. Torpaq altda qurdlara yem olmaq istəməyən şəxs məscidi süpürsün.

Başqa bir məqamda buyurur: Pis qoxulu göyərtidən (məsələn soğan və sarımsaq) yeyən şəxs bizim məclislərə (məscidlərə) gəlməsin. Çünki müsəlmanı narahat edən şey mələkləri də narahat edir.

Gecə namazı və nuranilik...

Həzrət Peyğəmbər (s) buyurur: Kim gecə namazı qılsa gündüzlər çöhrəsi nurani olar.

Namazın cism və ruha təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Beş vaxtın namazı evin qarşısından axan  su arxı kimidir. İnsan gündə beş vaxt bu arxda yuyunanda təmiz olduğu kimi beş vaxt namaz qılmaqla ruhunu çirkabdan təmizləyir. Amma namazı qəlbin iştirakı ilə qılsın. Bu halda onda günah qalmaz...

Müsəlman dəstəmaz alıb beş vaxtın namazını qılsa günahları ağacdan yarpaq tökülən kimi tökülər.

Duzun faydası...

Həzrət Peyğəmbər (s) buyurur: Allah-Taala Həzrət Musaya (s) vəhy etdi ki, yeməyə düzla başla, yeməyi duzla başa çatdır. Duzda yetmiş xəstəliyin şəfası var. Bu xəstəliklər arasında kiçiyi dəlilik, cüzam, xora, boğaz ağrısı, ala, qarın sancısı, diş ağrıdır... Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurur: Yeməyə duzla başla. Bu yetmiş xəstəliyin dərmanıdır... Sonra Həzrət (s) yuxarıda hədisdə sadalananları bir-bir yada salır.

Mövizin yaddaşa təsiri...

Peyğəmbərə hədiyyə olaraq ağızı bağlı qab verdilər. Peyğəmbər (s) qabın ağızını açdı və buyurdu: Allahın adı ilə yeyin. Məviz necə gözəl təamdır. Əsəbi möhkəmləndirir. Qəzəbi aradan qaldırır, Allahı razı salır, bəlğəmi aradan qaldırır, ağızı ətirli edir, ağız boşluğunu təmizləyir... Ac qarına məviz yeməyə adət edən insanın zehini güclənir, orqanizmində bəlğəmi azaldır.

Qəzəbi yatırdan ət

Həzrət Peyğəmbər (s) buyurur: Kim qəzəbini yatırtmaq istəsə turac əti yesin.

Ətin təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Ət dünya və axirətdə təamların başıdır... Dünya və axirətdə ən yaxşı yavanlıq ətdir... Ət yemək üzü gözəlləşdirir, əxlaqı gücləndirir... Toyuq yumurtası ilə ət yemək cinsi gücü artırır... Bir gün həzrət Peyğəmbər (s) kök bir adam gördü. Ondan nə yediyini soruşdu. Həmin şəxs dedi ki, bizim yerdə taxıl yoxdur. Ona görə də süd və ət yeyirəm. Həzrət buyurdu ki, sən iki əti bir-birinə qatıb yeyirsən?!

Ət və süd yeməyin təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Ət və süd yemək insanı ətə-qana gətirir, sümüklərini möhkəmləndirir. Ət eşitmə və görmə qabiliyyətini artırır. Ətlə toyuq yumurtası cinsi qüvvəni gücləndirir.

Dəvə əti...

Həzrət Peyğəmbər (s) buyurur: Dəvə əti yeməyi unutmayın. Yalnız yəhudilərə müxalif olan möminlər dəvə əti yeyir... Dəvə ətini möminlərdən başqası yeməz.

Armud...

Həzrət Peyğəmbər (s) buyurur: Armud qəlbi dirildir.

Dırnaq tutmağın təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Saqqalınızı təmizləyin, dırnaqlarınızı tutun. Şeytan tük və dırnaqlar arasında hərəkət edir... Başqa məqamda Həzrət (s) buyurur: Cinsiyyət üzvünün yuxarısında tükləri, dırnağını və bığını qısaltmayan bizdən deyil... Həzrət (s) buyurur: Sizlərdən bəziləriniz dırnaqlarınızı quş caynağı kimi uzadıb məndən göy haqqında soruşursunuz. Bir halda ki, dırnaqlarınızda çirkab toplanıb... Dırnaq tutmaq böyük xəstəliklərin qarşısını alar, ruzini artırar.

Kundur (bosvelliya)...

Həzrət Peyğəmbər (s) buyurur: Kundur yeməyi unutmayın. Beli möhkəmləndirir, ağılı artırır, huşu itiləşdirir. Gözə işıq verir, yaddaşı gücləndirir.

Yaddaşı gücləndirmək üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Ey Əli! Üç şey yaddaşı gücləndirir, bəlğəmi aradan qaldırır...Kundur, misvak, Quran qiraəti...

Kudu...

Həzrət (ə) buyurur: Kudu yeməyi yaddan çıxarmayın. Kudu ağılı gücləndirir... Kudu yeyin, o ağılı artırır, beyinin həcmini iriləşdirir... Başqa bir məqamda Həzrət Əliyə (ə) buyurur: Ey Əli! Kudu yeməyi yaddan çıxarma. Kudu beyin və ağılı gücləndirir.

Həzrət Peyğəmbər (s) çox Kudu yeyərdi. Bir gün Ənəs ondan soruşdu ki, deyəsən kudunu çox sevirsiniz? Bəli, çünki kudu beyin və ağılı gücləndirir.

Kərəfs...

Həzrət Peyğəmbər (s) buyurur: Kərəfs yeməyi unutmayın. Kərəfs düşüncəni gücləndirir... Həzrət Peyğəmbər (s) İmam Hüseynə (ə) buyurdu: Övladım kərəfs ye. Kərəfs peyğəmbərlərin, o cümlədən Xızır (s) və İlyasın (s) yediyi göyərtilərdəndir. Kərəfs kirəcləşmə və tıxaclanmanın qarşısını alır. Qəlbi təmizləyir, yaddaşı gücləndirir, dəlilik, cüzam, alanı aradan qaldırır, qorxunu uzaqlaşdırır... Həzrət digər bir yerdə buyurur: Kərəfs İlyas (s), Yəsə (s) və Yuşə (s) ibn Nunun (s) yediyi göyərtidir, kərəfs yeyin.

Balın təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Allah-Taala balı bərəkətli edib, onda xəstəliklərə şəfa var. Yetmiş Peyğəmbər (s) balın həmişə faydalı olmasını Allahdan istəyib... Həzrət buyurur: Yeni doğmuş qadın üçün xurmadan, xəstəliklər üçün baldan yaxşı dərman yoxdur... Həzrət buyurur: İki dərmanı yaddan çıxarmayın: Bal və Quran!

Mərcinin təsiri...

Bir şəxs Həzrət Peyğəmbərə (s) ürəyi bərklikdən şikayətləndi. Həzrət (s) buyurdu: Mərci ye, mərci qəlbi yumşaldır, gözdən yaş gətirir... Həzrət (s) buyurur: Mərci yeyin. Mərci qəlbi yuxalaşdırır, gözün yaşını artırır. Yetmiş peyğəmbər mərcini pak və müqəddəs sayıb... Mərci bərəkətli və pakdır, qəlbi nazildir, gözə yaş gətirir. Yetmiş peyğəmbər, sonda İsa (ə) olmaqla mərcinin həmişə olmasını Allahdan istəyib.

İnək südü...

Həzrət Peyğəmbər (s) buyurur: Sizə inək südü içməyi tövsiyə edirəm. İnək hər otdan yediyi üçün südündə xəstəliklərə şəfa var... Həzrət (s) buyurur: Xəstəliklərinizi inək südü ilə sağaldın. Ümid edirəm ki, Allah onda şəfa qərar verib. Çünki inək yarpaq və otlarla qidalanır... Həzrət Peyğəmbərdən (s) soruşurlar ki, inək südü ilə müalicə olarmı? Həzrət buyurur ki, Allah bütün xəstəliklər üçün dərman qərar verib. Süd için, çünki inək hər ot və ağacdan yeyir... Həzrət (s) buyurur: Allah nə dərd göndəribsə, o dərdə dərman da göndərib. İnək südü dərdlərə dərmandır.

Sarımsaq..

Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (s) buyurur: Ey Əli (ə) sarımsaq ye. Əgər mələklərlə danışmasaydım mən də yeyərdim... Həzrət (s) buyurur: Sarımsaq yeyin, sarımsaqda 70 xəstəliyin dərmanı var.

Sürmənin faydaları...

İmam Sadiq (ə) buyurur: Bir bədəvi ərəbin gözündən su axırdı. Peyğəmbərin (s) görüşünə gəldi. Həzrət (s) onun gözlərinə baxıb buyurur: Görürəm ki, gözlərindən su gəlir. Əsməd sürməsindən istifadə et. Bu sürmə gözün nurunu artırır... Həzrət (s) buyurur: Müşklə ətrləndirilmiş Əsməd sürməsindən istifadə edin. Bu sürmə gözü işıqlandırır, tükü çoxaldır... Başqa bir məqamda Həzrət (s) buyurur: Sürmədən istifadə edin. Sürmə tükü artırır, gözü gücləndirir... İmam Həsən (ə) buyurur ki, Peyğəmbər (s) mənə tövsiyə edərdi: Övladım arxası üstə yat ki, qarnın kçik olsun. Suyu sora-sora iç ki, dadlı olsun. Sürmə çək ki, gözün işıqlansın. İki gündən bir yağ çək ki, Peyğəmbər (s) sünnəsinə əməl etmiş olasan.

Sidrin təsiri...

Peyğəmbər (s) qəmlənmişdi. Cəbrail Həzrətə (s) dedi ki, başını sidrlə yusun. O sidr “sidrətul-müntəha” deyilən sidrdən idi... Həzrət Əli (ə) buyurur: Allah İslamı aşkar təbliğ göstərişi verəndə Peyğəmbər (s) müsəlmanları az, müşrikləri çox görüb qəmləndi. Allah-Taala Cəbraillə Sidrətül-müntəhadan sidr göndərdi. Peyğəmbər (s) başını həmin sidrlə yudu, qəm-qüssəsi dağıldı.

Zeytun yağı haqqında tövsiyə...

Həzrət Peyğəmbər (s) buyurur: Zeytun yağı için, bədəninizə bu yağdan sürtün. Zeytun bərəkətli ağacdır... Həzrət (s) buyurur: Zeytun yağı için, onda bərəkət var... Həzrət başqa hədisdə buyurur: Zeytun yağından istifadə edn. Ondan için, bədəninizə çəkin. Çünki zərərsiz və münasib dərmandır.

Heyvan yağı...

Həzrət Peyğəmbər (s) buyurur: Heyvan yağı ilə hazırlanmış təamdan bir tikə yeyən həmin qədər xəstəlikdən qurtarar. İnəyin əti xəstəlik yaratsa, yağı və südü şəfa verər. İnsan orqanizmi üçün inək yağı qədər faydalı qida yoxdur.

Dağ donbəlanı (trüfel)

Bu bitki behişt bitkisidir. Suyu gözə faydalıdır... Dağ donbəlanı ağ mumdur, onun suyu göz dərdlərinin dərmanıdır... Dağ donbəlanı Allah-Taalanın Bəni-İsrailə göndərdiyi “mən” adlandırılan nemətdir. O gözə dərmandır.

Xiyarın faydaları...

Həzrət Peyğəmbər (s) buyurur: Xiyar yeyin, Allah xiyarda bütün dərdlərə şəfa qərar verib... Xurmanı xiyarla yeyin... Həzrət Peyğəmbər (s) xiyar yeyəndə duzdan istifadə edirdi.

Pərpərən...

Həzrət Peyğəmbər (s) buyurur: Pərpərən yeyin, Pərpərən tənbəlliyi aradan qaldırır. Pərpərən ağılı gücləndirir... Bir gün Peyğəmbər (s) bədənində hərarət hiss edib pərpərəni dişi arasına alıb sıxdı. Sonra sakitləşdi. Dedi ki, Pərvərdigara, bu otu bərəkətli buyur. Pərpərəndə 99 xəstəliyin şəfası var.

Bərni xurması...

Həzrət Peyğəmbər (s) buyurur: Cəbrail mənə dedi ki, bərni xurması fəqərə sütununun suyunu artırır...

Həzrət (s) buyurur: Bərni xurması yeyin. Bu xurma yorğunluğu aradan qaldırır, soyuqluq zamanı istilik gətirir, acılığı yatırır. Bərni xurmasında 72 dərman var... Həzrət (s) buyurur: Əcvə xurması zəhərlənmə zamanı faydalıdır... Bu xurmanı Mədinədə Peyğmbər (s) əkmişdi. Həzrət buyurub ki, oruc tutanda xurma ilə iftar edin, əgər xurma olmasa orucunuzu su ilə açın... Həzrət (s) buyurur: Hamiləliyin son dövründə olan qadına xurma verin. Çünki xurma övlada dözüm və paklıq gətirir... Başqa bir məqamda Həzrət (s) buyurur: Doğuşa yaxın qadına xurma verin. Çünki bu zaman övlad dözümlü olar. Həzrət Məryəm (s) Həzrət İsanı (s) dünyaya gətirəndə də yediyi xurma idi. Əgər bundan gözəl qida olsaydı Allah onu əta edərdi.

Yemişin faydası varmı?

Həzrət Peyğəmbər (s) buyurur: Yemiş yeməklə orqanizmin meyvəyə olan ehtiyacını ödəyin. Çünki yemiş behişt meyvələrindəndir. Yemişdə min bərəkət, min rəhmət qərar verilib. Yemiş xəstəliklərin dərmanıdır... Başqa məqamda Həzrət (s) buyurur: Yemişin suyu rəhmətdir, şirinliyi behişt şirinliyidir. Yemiş yeyin ki, meyvəyə olan ehtiyacınız təmin olsun. Həzrət (s) buyurur: Yeməkdən qabaq yemiş yemək mədəni yuyur, xəstəliklərin qarşısını alır... Başqa məqamda buyurur: Yemişi tikə-tikə yeməyin. Onu dişinizə çəkin, çünki bərəkətli meyvədir, pakdır. Ağızı təmizləyir, qəlbi müqəddəsləşdirir, dişləri ağardır, Allahın razılığına səbəb olur. Onun ətiri ənbərdən suyu Kövsər çeşməsindən, ləzzəti behişt ləzzətlərindəndir. Yemiş yemək ibadətdir.

Həcamət etdirmisizmi? (Qan aldırmaq)

Həzrət Peyğəmbər (s) buyurur: Həcamət gözəl dərmandır. Qanı hərəkət etdirir, gözü işıqlandırır, insanı yüngülləşdirir... Həzrət (s) buyurur: Həcamət gözəl adətdir. Gözü işıqlandırır, ağrını aradan qaldırır.

İmam Sadiq (ə) buyurur: Cəbrail nazil oldu ki, Peyğəmbərə (ə) misvak, xəlal (diş təmizləmək) və həcaməti tövsiyə etsin... Həzrət Peyğəmbər (s) buyurur: Əgər bədəninizdə qan qatılaşsa həcamət edin. Qan qatılaşıb insanı öldürə bilər... Həzrət Peyğəmbərin (s) xidmətçisi Sələmi deyir: Peyğəmbər (ə) başı ağrayan şəxsə, ayağı ağrayan şəxsə həcaməti tövsiyə edirdi. Buyururdu ki, həcamət et, ona həna yax... Həzrət (s) buyurur: Başdan həcamət dəliliyi, cüzamı, gecə korluğunu, alanı, baş ağrısını aradan qaldırır... Həcamət ağıl və yaddaşı gücləndirir...

Tərə  (kəvər) də faydalıdır...

Həzrət Peyğəmbər (s) buyurur: Göy-göyərti arasında tərənin yeri qidalar arasında çörəyin yeri kimidir... Bir gün Peyğəmbərin (s) yaxınları Həzrətin (s) hüzurunda tərədən danışırdı. Həzrət (s) buyurdu: Tərə göy-göyərtinin başıdır. Onun başqa göyərtilərdən üstünlüyü çörəyin başqa təamlardan üstünlüyü kimidir. Tərə bərəkətlidir, mənim və məndən öncəki peyğəmbərlərin göyərtisidir. Mən onu xoşlayıb yeyirəm. Ona baxanda sanki behişt yaşıllığını görürəm.

Sitrus berqamotu tanıyırsız?

Həzrət Peyğəmbər (s) buyurur: Turənc (berqamot) yeyin. Turənc qəlbi nuranilәşdirir, beyinin gücünü artırır... Həzrət (s) turəncə baxmağı xoşlayırdı. Başqa bir rəvayətdə

deyilir ki, Peyğəmbər yaşıl turənc və qırmızı almaya baxmağı xoşlayırdı. Yusif və Züleyxa dastanında da bu meyvənin adı çəkilir. Klassik poyeziyada turəc aşiqin məşuqa ən yaxşı hədiyyəsi kimi qeyd olunub. Turəncin suyu ekzemaya, yağı əsəbə və iflicə, eləcə də boğaz və sinəyə faydalıdır.

Toyuq yumurtası yaddan çıxmasın!

Həzrət Peyğəmbər (s) buyurur: Peyğəmbərlərdən (s) biri zəiflikdən şikayətlənir. Allah göstəriş verir ki, toyuq yumurtası yesin... Həzrət (s) buyurur: Ətlə yumurtanı birlikdə yemək cinsi qüvvəni artırır... Üç şey arıqlamağa səbəb olur. Onlardan biri həddən ziyadə toyuq yumurtası yeməkdir.

Heyva hədiyyəsi...

Həzrət Peyğəmbər (s) buyurur: Heyva yeyin, onu bir-birinizə hədiyyə verin. Heyva gözü işıqlandırır, qəlbə eşq gətirir. Hamilə qadınlarınıza heyva verin ki, övladlarınız gözəl olsun... Həzrət (s) buyurur: Peyğəmbərlərdən (s) heyva ətiri gəlir. Hurilərin qoxusu iskəncəbin (bal) qoxusudur. Mələklərin ətri qızıl gül ətiridir. Qızım Fatimədən (s) heyva, isgəncəbin, qızıl gül ətiri gəlir. Allah hansı peyğəmbəri göndərdisə o peyğəmbərdə heyva ətiri var idi. Heyva yeyin, övladlarınızın gözəl olması üçün hamilə qadınlarınıza heyva yedirdin... Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurur: Ey Əli (ə)! Kim üç gün ac qarına heyva yesə, zehini paklanar, sinəsi elmlə dolar, dözümlü olar, şeytan və şeytansifətlərin hiyləsindən amanda qalar... Heyvanı ac qarına yeyin. Heyva sinənin istiliyini aradan qaldırır... Həzrət Əli (ə) buyurur: Bir gün Peyğəmbərin (s) əlində heyva var idi. Heyvadan mənə də verdi və buyurdu: Ey Əli (ə) heyva ye, bu Allahın mənə və sənə hədiyyəsidir. Mən ehyva yeməklə bütün ləzzətləri dadmışam... Bir gün Peyğəmbər (s) Cəfər ibn Əbu Talibə heyva verib buyurur: Heyva ye, heyva dərinin rəngini gözəlləşdirir, övlada gözəllik verir... Həzrət (s) buyurur: Heyva yeyin, heyva yaddaşı və zehini gücləndirir, sinədəki ağrını aparır, övladın gözəlliyinə səbəb olur... Bir gün Təlhə Peyğəmbərin (s) yanına gəlmişdi. Peyğəbər (s) əlindəki heyvanı ona verib buyurdu: Əbu Məhəmməd, heyvanı ye, çünki ürəyi gücləndirir, ruhu paklaşdırır, sinədəki ağırlığı aradan qaldırır... Həzrət Peyğəmbər (s) buyurur: Ürəyinizdə ağırlıq hiss edəndə heyva yeyin... Heyva sinədəki ağırlığı götürür.

Ətdən sonra düyü!

Həzrət Peyğəmbər (s) buyurur: Düyü yaxşı dərmandır. Soyuq məzaclıdır, bütün qəstəliklərə qarşı faydalıdır... Dünya və axirət əhli üçün yeməklərin şahı ət, sonra düyüdür... Yeməklər arasında düyü tayfa arasında rəis kimidir.

Paxla yaddan çıxmasın...

Həzrət Peyğəmbər (s) buyurur: Kim bir paxla dənəsini qabıqlı yesə Allah həmin həddə onun xəstəliklərinə şəfa verər. İsa (s) səmaya qalxana qədər paxla yeməyi tərk etmədi.

“And olsun əncirə!”

Həzrət Peyğəmbərə (s) bir qədər əncir hədiyyə gətirdilər. Həzrət buyurdu: Əncir yeyin. Əgər behiştdən bir meyvə gəldiyini deməli olsaydım bu meyvənin adını çəkərdim. Əncir tumsuz meyvədir. Babasili sağaldır, başqa faydaları var... həm təzə, həm də qurudulmuş əncir yeyin. Cinsi qüvvəni artırır, babasili sağaldır, soyuqdəyməni aradan qaldırır.

Hər şəhərdə əvvəlcə soğan!

Həzrət Peyğəmbər (s) buyurur: Əgər bir şəhərə, bir vilayətə getsəniz, vəbaya yoluxmaqdan qorxsanız soğan yeyin. Soğan gözü işıqlandırır, tükü saflaşdırır, belin suyunu artırır. Soğan gün vurma və yorğunluğu aradan qaldırır... Həzrət (s) buyurur: Bir şəhər və kəndə gedəndə oranın soğanından yeyin ki, vəbaya tutulmayasınız.

C vitamini barədə çox yazılıb. Məhşur alman araşdırmaçısı professor Kervat deyir: Orqanizmin zəruri ehtiyacı olan c vitamininin çatışmamazlığı restoran və yeməkxana xörəklərindən daha çox gözlənilir... Əksər mütəxəssislər bu fikirdədir ki, evdən bayırda hazırlanan xörəklərdə c vitamini kifayət həddə deyil. Buna görə də göy-göyərti yeməklə c vitamininə olan ehtiyacı aradan qaldırmaq lazımdır.  Soğanda c vitamini kifayət qədər çoxdur. Həzrət Peyğəmbər (s) soğan yemək göstərişi verməklə bu vitaminə olan ehtiyacın təmin olunmasını nəzərdə tutur.

Pendir yuxu gətirir...

Həzrət Peyğəmbər (s) buyurur: Pendir yeyin, çünki pendir yuxu gətirir, həzmə kömək edir. Pendir xəstəliyə səbəb olur, amma qozla yeyilsə dərman olar. Pendir də, qoz da

təklikdə xəstəlik yaradır. Birlikdə yeyilsə dərman olar. Hamilə qadın yemişlə pendiri birlikdə yesə övladı gözəl və əxlaqlı olar.

Qəm-qüssənizi sidrlə dağıdın!

İsa ibn Abdullah Ələvi atasından, babasından nəql edir ki, Peyğəmbər (s) qəmgin olduğu zaman Cəbrail dedi: Ey Allahın Rəsulu (s) başını sidrlə yu.

Saqqal üçün sevilən rəng... )Xizab)

Həzrət Peyğəmbərə xəbər verdilər ki, yaxınlarından bir qrupu saqqalına sarı rəng qoyub. Həzrət (s) buyurdu ki, bu İslamdandır, mən onları görmək istəyirəm. Həzrət Əli (ə) onların yanına gedib Peyğəmbərin (s) sözünü çatdırdı. Həmin adamlar Peyğəmbərin (s) görüşünə gəldilər. Həzrət Peyğəmbər (s) buyurur: Bu İslam rəngidir. Həzrət Əli (ə) buyurur ki, Peyğəmbərin (s) sözündən həvəslənənlər  növbəti dəfə saqqallarına qırmızı rəng qoydular. Həzrət (s) bunu eşidib buyurdu ki, bu iman rəngidir. Həmin adamlar Peyğəmbərin (s) təşviqi ilə ömürlərininin axırına qədər saqqallarına rəng qoydular. Həzrət Peyğəmbər (s) buyurur: Saqqala qoyulan rənglər arasında Allah üçün xoş olanı qara rəngdir... Həzrət (s) buyurur: Saqqala rəng qoymağın 14 xüsusiyyəti var. Qulağın havasını alır, gözü itiləşdirir, burunu yumşaldır, ağızı ətirləndirir, damağı möhkəmləndirir, bədənin pis qoxusunu aradan qaldırır, şeytan vəsvəsəsini uzaqlaşdırır, mələkləri sevindirir, möminlərin könlünü açır, kafirlərin qəzəbinə səbəb olur, gözəllik və xoş ətir səbəbidir, qəbirdə rahatlıq gətirir, nəkir və münkər ondan həya edir.

Saçınızı darayın!

Həzrət Peyğəmbər (s) buyurur: Saçı daramaq vəbanı uzaqlaşdırır, ruzini artırır, cinsi qabiliyyəti gücləndirir... Həzrət (s) buyurur: Kim şənbə və cümə axşamı günü dırnağını tutsa və bığını qısaltsa diş ağrısı və göz ağrısından amanda qalar.

Gün doğanda nar yesən...

Həzrət Peyğəmbər (s) buyurur: Nar meyvələrin şahıdır. Kim 40 gün gün doğan vaxt nar yesə şeytanı qəzəbləndirər... Həzrət (s) buyurur: Kim narı tam yesə qırx gecəyə qədər qəlbi nurani olar... Narı pərdəsi ilə yeyin, çünki bu halda mədəni yuyur.

Baş ağrısına qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Hamamdan çıxandan sonra ayağı soyuq su ilə yumaq baş ağrısından qoruyur.

Tez qocalmaq istəmirsən?

Doqquz şey insanı tez qocaldar: Gecə ayaq üstə su içmək, qarnı üstə yatmaq, başı (mədəndən çıxan) torpaqla yumaq, yaxanı üzə sürtmək, qadının cinsi üzvünə baxmaq, ətirdən çox istifadə etmək, ayaqyolunda çox qalmaq, cinsi əlaqədə çox olmaq, yersiz danışmaq.

Şam yeməyi yeyirsiz?

Həzrət Peyğəmbər (s) buyurur: Şam yeməyini tərk etməyin. Bir neçə xurma ilə də olsa şam yeyin. Şam yeməmək qocalığa səbəb olur, şam yemək insanı cavanlaşdırır.

Dərmansız dərd yoxdur!

Həzrət Peyğəmbər (s) buyurur: Hər dərdin öz dərmanı var. Dərmanı verilsə xəstəlik sağalar... Dərdləri yaradan Allah onların dərmanını da yaradıb... Nə qədər ki, xəstəlik müəyyən olunmayıb dərmandan istifadə etmə... Təbabəti bilmədən tiblə məşğul olan şəriət qarşısında cavabdehdir. Tibbi bilmədiyindən bu işi görüb ölümə və ya zərərə səbəb olan şəriət qarşısında cavabdehdir.

Haram şeydən dərman olar?

Həzrət Peyğəmbər (s) buyurur: Bir şəxs haram şeylə özünə dərman etsə Allah-taala ona şəfa verməz... Tariz ibn Suid Cəfər şərab haqqında soruşanda Həzrət (ə) bunu qadağan edir. Tariq deyir ki, məqsəd dərman olsa necə? Həzrət (ə) buyurur: Bu dərman deyil, özü bir xəstəlikdir. Bir gün Ümmi Sələmənin qızı xəstələnir. Dərman üçün qaba şərab tökürlər. Peyğəmbər bunun nə olduğunu soruşur. Ümmi sələmə cavab verir. Peyğəmbər (s) buyurur: Allah-Taala haram şeyi dərman qərar verməyib...

Sağlam olmaq üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Hər işin yolu var. Sağlamlığın yolu üçdür: Az danışmaq, az yatmaq, az yemək.

Qəm-qüssə və ömürün uzunluğu...

Həzrət Peyğəmbər (s) buyurur: Çox nigarançılıq xəstəliyə səbəb olur... Qəm-qüssə qocalığın yarısıdır.

Bığ və dırnağı qısaltmaq...

Həzrət Peyğəmbər (s) buyurur: Cümə günü bığ və dırnaqları qısaltmaq dərdləri aradan qaldırır... Həzrət (s) buyurur: Dırnaqı tutmaq böyük dərdlərin qarşısını alır, ruzini artırır.

Dağlardakı isti suyun təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Dağlardakı isti bulaqların suyuna dərman kimi baxmayın, çünki bu sular kükürd qoxusu verir...

Həna qoymaq faydalıdır?

Həzrət Peyğəmbər (s) buyurur: Hənadan istifadə edin, çünki gözü işıqlandırır, tükü artırır, xoş qoxu yaradır, zövcəyə aramlıq gətirir.

Damarlar sıxılanda...

Oruc tutun. Oruc damarların tutulmasını aradan qaldırır, yuxululuğu uzaqlaşdırır.

Balın ürəyə təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Bal gözəl qidadır. Ürəyə yaxşı təsir göstərir, sinənin soyuğunu aradan qaldırır.

Heyvanın ürəyə təsiri...

Həzrət Peyğəmbər (s) Cəfər ibn Əbu Talibə buyurur: Heyva yeyin. Heyva qəlbi gücləndirir, qorxaq insana cəsarət verir... Həzrət (s) buyurur: Heyva yeyin. Çünki heyva qəlbi açır, insana cəsarət verir, övlad gözəl olur... Başqa bir rəvayətdə buyurur: Heyva yeməyi yaddan çıxarmayın. Çünki qəlbi açır, sinədəki ağırlığı aradan qaldırır.

Həcamət üçün günlər...

Həzrət Peyğəmbər (s) buyurur: Ayın 17, 19 və 21-nə təsadüf edən çərşənbə axşamı günü həcamət edin. Bu iş böyu xəstəliklərin dərmanıdır. Belə həcamət baş ağrısına, diş ağrısına, dəliliyə, cüzama, alaya qarşı xeyirlidir.

İlıq su ilə iftar...

Həzrət Peyğəmbər (s) halva ilə iftar edərdi. Halva olmasaydı başqa şirnidən, xurmadan istifadə edərdi. Bir şey olmayanda ilıq su ilə orucunu açardı. Həzrət (s) buyurur: İlıq su mədə və qara ciyəri təmizləyir, ağıza xoş qoxu verir, dişləri möhkəmləndirir.

Mis qabın zərəri...

Həzrət Peyğəmbər (s) buyurur: Misdən hazırlanmış qablarda su içməyin. Bu vasvasılıq və pərişanlıq səbəbidir.

Xilalın faydası...

Yemək yeyəndən sonra xilal edin. (dişləri çöplə təmizləyin) Bu dişləri sağlam saxlayır, ruzini artırır... Həzrət (s) buyurur: Yeməkdən sonra xilal edin, ağızınızı yaxalayın. Bu kəsici və dəyirman dişlərə faydalıdır... Bir gün Peyğəmbər (s) Cəfər ibn Əbu Talibə Xilal verib buyurdu: Ey Cəfər! Xilal et, bu ağızın sağlamlığına səbəb olur, ruzini artırır.

Misvakın xüsusiyyətləri

Həzrət Peyğəmbər (s) buyurur: Cəbrail həmişə mənə misvak etməyi tapşırırdı. O qədər israr edirdi ki, düşünürdüm misvak vurmaq vacib olacaq... Həzrət (s) buyurur: Misvak etmək insanın fitrətindən, tövhiddəndir... Həzrət (s) başqa bir məqamda buyurur: Misvak edin, çünki ağızın təmizliyi və Allahın razılığına səbəb olar... Misvak

dişləri möhkəmləndirər. Gündə iki dəfə misvak edən peyğəmbərlərin sünnəsini davam etdirib. Hər qıldığı namaza görə Allah ona yüz rəkət namazın savabını yazar, onu ehtiyacsız edər, ağızı xoş qoxulu olar, yaddaşı güclənər, düşüncəsi dərinləşər, qidaları ləzzətli olar, diş ağrıları aradan qalxar, xəstəliklərinin qarşısı alınar, mələklər ona əl verər, dişləri təmiz olar... Həzrət (s) bir hədisdə misvakın on xüsusiyyətini sadalayır:

Ağızı ətirləndirər, damağı möhkəmlədər, bəlğəmi aradan qaldırar, gözü işıqlandırar, dişlərin ərpini əridər, mədəyə kömək edər, Peyğəmbər (s) sünnəsinə əməl olunar, mələkləri sevindirər, Allahı razı salar, xeyir əməlləri artırar... Həzrət (s) buyurur: Allah üçün misvakdan sonra iki rəkət namaz misvaksız yetmiş rəkət namazdan üstündür.

Həzm sisteminə faydalı göstərişlər...

Həzrət Peyğəmbər (s) buyurur: Mədə bütün xəstəliklərin mənzilidir. Pəhriz bütün dərmanların köküdür... Həzrət (s) buyurur: Kahı yeyin. Kahı yuxu gətirər, yeməyi həzmə verər... Həzrət (s) buyurur: Cəbrail mənə dedi ki, bərni xurmasında doqquz xüsusiyyət var:

Ağz qoxusunu aradan qaldırır, mədəni təmizləyir, qidanı həzmə verir və s... Həzrət (s) buyurur: Bütün xəstəliklərin kökü mədənin ağırlığındadır... Buyurur: Suyu aram için, onu birdəfəyə başınıza çəkməyin bu qara ciyər xəstəliyinə səbəb olar.

İshalın dərmanı...

Bir şəxs Peyğəmbərə (s) qardaşının ishala düçar olduğunu dedi: Kişi qardaşına bal versə də təsirini görməyib yenidən Peyğəmbərə (s) müraciət etdi. Peyğəmbər (s) yenə də xəstəyə bal verilməsini buyurdu. Bu get-gəl bir neçə dəfə təkrarlandı, kişi dördüncü dəfə gəlib dedi ki, ishal güclənib. Həzrət (s) buyurdu ki, Allahın sözünə inan, qardaşının qarnına yox. Kişi geri qayıdıb xəstəyə yenidən bal verdi. Bu dəfə xəstəlik tam aradan qalxdı... Başqa bir şəxs Həzrətə (s) qarın sancısından şikayətləndi. Həzrət (s) buyurdu ki, baldan şərbət düzəlt, ona üç-yeddi ədəd qaraçörəkotu dəni at, sonra iç, Allahın izni ilə sağalarsan... Həmin şəxs bu göstərişə əməl edib sağaldı.

Acqarına xurma...

Həzrət Peyğəmbər (s) buyurur: Xurmanı acqarına yeyin, bu halda qarındakı qurdları öldürər.

Başgicəllənməyə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Kim sədo (sudab) yesə başgicəllənməsi aradan qalxar.

İybilməni gücləndirmək üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Kimin qoxu bilmə qabiliyyəti zəifsə mərzinquş yesin. Bu iybilməni gücləndirir.

Xəstəliklərə qarşı duz...

Həzrət Peyğəmbər (s) buyurur: Allah-Taala Həzrət Musaya (s) vəhy etdi ki, yeməyə duzla başla və yeməyi duzla başa çatdır. Duzda yetmiş xəstəliyin dərmanı var, bu xəstəliklərin kiçiyi dəlilik, cüzam, ala, boğaz ağrısı, diş və qarın ağrısıdır.

Burunu qorumaq üçün...

Dəstəmaz aldığınız zaman burnunuza azca su çəkin və geri qaytarın... Həzrət (s) buyurur: Kim yuxudan oyanıb dəstəmaz alsa üç dəfə burnuna su alıb qaytarsın. Çünki şeytan burunda yuva qurar.

Cinsi yaxınlıqdan sonra...

Həzrət Peyğəmbər (s) buyurur: Cinsi yaxınlıqdan sonra sidiyə gedib qüsl verməsən kanalda qalan məni çarəsiz xəstəliyə səbəb olar.

Dərhal qüsl!

Həzrət Peyğəmbər (s) buyurur: Kişi üçün məkruhdur ki, möhtəlim olandan sonra qüsl verməmiş yaxınlıq etsin. Möhtəlim olandan sonra qüslsüz yaxınlıq etsə və dünyaya dəli övlad gəlsə yalnız özünü məzəmmət etsin.

Təzə gəlin ilk həftədə...

Həzrət Peyğəmbər (s) buyurur: Ey Əli! Təzə gəlinə ilk həftədə süd, sirkə, kişniş, turş alma vermək olmaz. Çünki bunları yediyi zaman uşaqlığı soyuyar, sonsuz olar. Sirkə

içsə iltihab yaranar və heç vaxt kamil paklanmaz. Kişniş heyz qanı gətirər, doğuşu çətinləşdirər. Turş alma heyz qanının qarşısını alar, xəstəlik yaradar.

Heyz vaxtı qadağa...

Həzrət Peyğəmbər (s) buyurur: Kim zövcəsi ilə heyz vaxtı yaxınlıq etsə və övladı cüzam ya ala vəziyyətdə dünyaya gəlsə yalnız özünü məzəmmət etsin... Həzrət (s) buyurur: Ey mənim ümmətim! Allah sizin üçün 24 şeyi bəyənməyib və qadağan edib. Bunlardan biri heyz zövcə ilə yaxınlıqdır. Bu halda uşaq dünyaya xəstə vəziyyətdə gəlsə müqəssir özüdür.

Sidik gələn zaman...

Həzrət Peyğəmbər (s) buyurur: Bayıra çıxmağı gələn adam bu işi görməmiş yaxınlıq etsə babasil yaranar. Sidiyi gələn halda yaxınlıq edən şəxsin dişinin dibi və məxrəcində xəstəlik yaranar.

Sünnət lazımdır?

Allah-Taala dost adlandırdığı Həzrət İbrahimə (s) İslam ayinlərini göndərdi. Ona bığı və dırnaqları qısaltmağı, bədən tüklərini qısaltmağı və sünnət etməyi göstəriş verdi... Həzrət (s) buyurur: Övladlarınızı doğulandan sonra yeddinci gündə sünnət edin. Bu paklıq yaradar, uşağı ətə-qana gətirər.

Görmə qabiliyyətini gücləndimək üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Daim Qurana baxan insan nə qədər ki, həyatdadır gözləri görəcək... Həzrət (s) buyurur: Qurana baxmaqla onu oxuyanın görmə qabiliyyəti qorunar.

Göbələk və göz...

Həzrət Peyğəmbər (s) buyurur: Göbələk behişt bitkilərindəndir. Göbələk suyu göz üçün faydalıdır... Göbələyin suyu gözə şəfa verər.

Heyva və göz...

Həzrət Peyğəmbər (s) buyurur: Heyva yeyin, bir-birinizə heyva bağışlayın. Çünki heyva gözü işıqlandırar, qəlbdə məhəbbət yaradar... Həzrət (s) buyurur: Heyva yemək gözün qaranlığını aradan qaldırar.

İmam Hüseynə (ə) tövsiyələr...

Həzrət Peyğəmbər (s) İmam Hüseynə (ə) buyurdu: Övladım arxan üstə yat ki, qarnın kiçik olsun. Suyu aram iç ki, ləzzət alasan. Sürmə çək ki, gözlərin işıqlansın. İki gündən bir bədəninə yağ çək ki, peyğəmbər sünnəsinə əməl etmiş olasan.

Yeməkdən əvvəl və sonra...

Yeməkdən əvvəl və sonra əlləri yumaq yoxsulluğu, qəm-qüssəni aradan qaldırır, gözlərə sağlamlıq verir.

Hamilə qadın üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Hamilə qadına kundur verin. Əgər bətindəki uşaq kundurla qidalansa ürəyi möhkəm, düşüncəsi güclü olar. Övlad oğlan olsa cəsarətli, qız olsa gözəl olar.

İlk dəfə xurma...

Həzrət Peyğəmbər (s) buyurur: Övladlarınızın ağzını xurma ilə açın. Həzrət Peyğəmbər (s) Həsənə beləcə xurma verdi...

Doğuşdan sonra...

Yeni doğmuş qadın üçün xurmadan, xəstə üçün baldan faydalı şey yoxdur... Həzrət (s) buyurdu: Yeni doğmuş qadının ilk yediyi şey xurma olsa yaxşıdır. Allah-Taala Məryəmə buyurdu ki, ağacın budağını silkələ, təzə xurma tökülsün... Yeddi ədəd Mədinə xurması, olmasa yeddi ədəd əyalət xurması yedirin. Allah buyurur ki, and olsun izzət və cəlalıma yeni doğmuş qadın xurma yesə övladı dözümlü olar.

Südün təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Xəstə, gözü zəif qadını dayə tutmayın. Çünki südün təsiri var... Körpəyə ona süd verən qadının xüsusiyyəti sirayət edir.

Bədəndə alanın səbədi...

Beş şey bədəndə alaya səbəb olur: Cümə və çərşənbə günləri bədənə nurə çəkmək (tükü tökmək üçün), günəş altda qızmış su ilə dəstəmaz və qüsl, cünub halda nəsə yemək, heyz zövcə ilə yaxınlıq, tox ikən yemək.

Dəriyə təsirli...

Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurdu: Duzdan istifadə et, duz cüzam, dəridə ala və dəlilik də daxil olmaqla 70 xəstəliyin dərmanıdır.

Dərini necə qorumaq?

Həzrət Peyğəmbər (s) buyurur: Hər bir müsəlman həftədə bir dəfə qüsl verməli, baş və bədənini yumalıdır... Hər tükün altda cənabət var, tükləri yuyun, dərini təmizləyin.

Yorğunluğa qarşı...

Bir yerə gedəndə həmin yerin soğanından yeyin. Gözünüz işıqlanar, tükləriniz təmizlənər, belinizin suyu artar, yerişiniz itiləşər, çöhrəniz açılar, yorğunluğunuz aradan qalxar.

Zökəm və dəri xəstəlikləri...

Həzrət Peyğəmbər (s) buyurur: İnsan bədənində iki mühüm damar var. Biri cüzama səbəb olan baş damarı, biri dəridə ala yaradan bədən damarı. Əgər baş damarında fəsad yaransa Allah zökəm xəstəliyi ilə onu sağaldar. Əgər bədən damarında fəsad yaransa Allah kurək xəstəliyi ilə onu aradan qaldırar. Buna görə də zökəm və kurək olanda Allaha şükür edin.

Bir daha ət və süd haqqında...

Həzrət Peyğəmbər (s) buyurur: Ət və süd bədəni ət-qana gətirər, sümükləri möhkəmləndirər. Eləcə də ət görmə və eşitmə qabiliyyətini artırar.

Babasilə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Babasil xəstəliyini aradan qaldırmaq üçün təzə ya quru əncir yeyin. Əncir cinsi qabiliyyəti artırar, soyuqdəyməni aradan qaldırar.

Meyvələrin zərərinə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Kim Allahın adı ilə meyvə yeməyə başlasa meyvə ona zərər yetirməz... Həzrət (s) buyurur: Kim bir növ meyvə yesə bu meyvədən ona zərər dəyməz.

Əti yuyun!

Həzrət Peyğəmbər (s) buyurur: Qardaşım İsa (s) bir şəhərdən ötüb keçirdi. Gördü ki, şəhər əhalisinin çöhrəsi sarı, göz hədəqəsi göydür. Onlar İsaya (s) xəstəliklərindən şikayətləndilər. Həzrət İsa (s) buyurdu: Dərmanınız öz əlinizdədir. Əti yumamış bişirib yeyirsiniz. Hansı ki, cənabəti olmayan bir şey yoxdur... Şəhər əhalisi həmin vaxtdan əti yumağa başladı. Bununla da xəstəliklər aradan qalxdı.

Duzu yaddan çıxarma...

Həzrət Peyğəmbər (s) buyurur: Yeməyə duzla başlayıb, onu duzla başa çatdırsan cüzam və ala da daxil oçmaqla 72 xəstəlikdən amanda qalarsan.

Allahın adı ilə başla!

Həzrət Peyğəmbər (s) buyurur: Allahın adını çəkmədən nə yesən xəstəliyə səbəb olar, bərəkəti olmaz.

Əllərinizi yuyun...

Həzrət Peyğəmbər (s) buyurur: Əlindən ət qoxusu gələn halda yatan özünü məzəmmət etsin... Yemək yeyəndən sonra yağlı əllərinizi yuyun...

Yağlı əllə yatıb xəstələnən şəxs özü müqəssirdir.

Evin bərəkətini artırmaq üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Yeməkdən əvvəl və sonra əlləri yumaq xəstəlikdən şəfaya, ruzidə bərəkətə səbəb olar... Kim evinin xeyir- bərəkətinin artmasını istəyirsə yemək yeməzdən öncə dəstəmaz alsın. Kim yeməkdən qabaq və sonra dəstəmaz alsa ruzusi artar, həyatında asayiş yaranar, bədəni bəlalardan amanda qalar... Yeməkdən qabaq və sonra əlləri yumaq yoxsulluq və qəm-qüssəni aradan qaldırar, gözləri qoruyar.

Acqarına su?

Həzrət Peyğəmbər (s) buyurur: Kim ac qarına su içsə gücü azalar.

Sınıq qab...

Həzrət Peyğəmbər (s) buyurur: Peyğəmbər (s) möminə iki qadağa qoyur: Qabın ağzının sınıq tərəfindən su içmək, içilən qabı üfürmək.

Qabın tutacağı...

Həzrət Peyğəmbər (s) buyurur: Qabın dəstəyi çirkab yığışan yerdir, həmin tərəfdən içməyin.

Yağlı yeməkdən sonra...

Yağlı xörəkdən sonra su içmək xəstəliyə səbəb olar... Yağlı xörək yeyib üstündən su içən adamın qarnında fəsad yaranar.

Yağlı ətdən sonra...

Əmirəlmöminin (ə) buyurur: Peyğəmbər ət yeyəndə su içməyə tələsməzdi... Bir şəxs Peyğəmbərdən (s) nə üçün ət yeyəndən sonra az su içdiyini soruşur. Həzrət (s) buyurur: Kim yağlı əti yeyib qurtarana qədər su içməsə təam ona ləzzətli olar.

Suyu başa çəkmək...

Həzrət Peyğəmbər (s) buyurur: Suyu aram için, birdəfəyə başınıza çəkməyin. Bu çiyərlərə zərərdir.

Suyu üfürmək...

Peyğəmbər (s) bir şey içəndə onu üfürməzdi. Nəfəs almaq istəyəndə qabı ağzından uzaqlaşdırardı.

Ac qalmaq zərərdir?

Həzrət Peyğəmbər (s) buyurur: Allah yanında o insanın məqamı üstündür ki, hamıdan çox aclıq cəksin, hamıdan çox düşünsün. Çox yeyib içən adam Allahın nəzərində mənfurdur... Həzrət (s) buyurdu ki, behişt qapısını ardıcıl döyün ki, qapı açılsın. Soruşduıar ki, necə? Həzrət (s) buyurdu ki, aclıq və susuzluqla! Həzrət (s) buyurur ki, oruc tutsanız sağlam olarsınız.

Aclığın dəyəri...

Əmirəlmöminin (ə) buyurur: Merac gecəsi Həzrət Peyğəmbər (s) Allaha müraciət etdi: Pərvərdigara! Məni sənə yaxınlaşdıran işlərə sövq et... Allah buyurdu: Gecəni gündüz, gündüzü gecə qərar ver. Həzrət (s) bunu necə etməli olduğunu soruşdu. Allah buyurdu: Namazı, yuxunu və aclığı özünə ruzi et. Ey Əhməd! And olsun izzət və cəlalıma ki, kim dörd iş görsə onu behiştə apararam: Dilini saxlasa və yalnız özünə aid işlər barədə danışsa, qəlbində vəsvəsəyə yol verməsə, hər zaman onu gördüyümü yadda saxlasa, aclıq gözünün nuru olsa. Ey Əhməd! Ey kaş aclığın ləzzətini, sükutun dadını biləydilər, aclıqdan irs aparaydılar! Peyğəmbər (s) soruşur ki, aclığın irsi nədir? Allah-Talla buyurur: Hikmət, qəlbi qorumaq, Allaha yaxınlıq, həmişə qəm, xalqa güvənməmək, haqqı demək, rifah ya çətinlikdə yaşamağa fərq qoymamaq. Ey Əhməd! Bilirsənmi bəndə mənə nə zaman yaxın olur? Ac ya səcdədə olanda!

Nə qədər az yesən...

Həzrət Peyğəmbər (s) buyurur: Kim yeməyindən azaltsa batini işıqlanar... Şeytanın əlindən qurtulmaq istəyən az ət və yağ yeməklə bədənini əritməlidir. Az yemək mələklərin hüzuruna, Allahın razılığını düşünməyə səbəb olur... Başqa məqamda buyurur: Az yemək, az içmək, nəfs istəkləri ilə mübarizə aparmaq şeytanı uzaqlaşdırar, insanı mələklərin himayəsində qərar verər... Evdəkilər az yesələr evin nuru artar... Dərmanların şahı az yeməkdir.

Çox yesən...

Həzrət Peyğəmbər (s) buyurur: İnsanın doldurduğu qablar arasında ən pis qab qarındır. İnsan bir neçə tikə ilə düz dayana bilər. Əgər nəfs istəyinə qalib gəlib yeməyə, içməyə və nəfəs almağa üçdəbir yer saxlasa xeyir görər... Həzrət (s) buyurur: Ümmətimin ən pisi o kəslərdir ki, rifah içində doğulublar, çeşidli xorəklər yeyiblər, çeşidli libaslar geyiblər, çeşidli miniklərə süvar olublar, həm də çox danışırlar... Buyurur: Qorxaq ürək, doymayan qarın, dəli şəhvət, dinin düşməni olan pis dostlardır... Başqa bir məqamda buyurur: Çox yemək və çox içməklə qəlbinizi öldürməyin. Qəlb əkin yeri kimidir, çox suvarılsa məhv olar... Buyurur: Çox yemək qəlbi öldürər, ibadətdə süstlük yaradar, öyüd-nəsihət eşitməyə mane olar... Kim çox yemək və çox içməyə adət etsə qəlbi daşlaşar. Həzrət (s) buyurur: Bir gün Cəbrail gözlənilmədən nazil oldu. Dedim ki, əvvəllər gəlmədiyin vaxt gəlmisən, məni qorxutdun. Cəbrail dedi: Ey Məhəmməd (s)! Allah səni bağışlayıb, nə üçün qorxursan?! Allah səni nə üçün seçib? Allah sənə bütlərə pərəstişi, şərab içməyi, pis danışmağı, insanlarla didişməyi, qadağan edib. Allah buyurur ki, Mənim üçün qarınquluuqdan xoşagəlməyən sifət yoxdur...

Salman Farsini qonaq çağırdılar. Bir qədər yeyib dayandı və dedi: Bəs edər. Peyğəmbər (s) buyurub ki, dünyanın ən tox adamı axirətin ən ac adamıdır. Dünya möminə zindan, kafirə behiştdir.

Xəstəyə diqqət...

Bir gün Peyğəmbər (s) bir xəstəni yoxlamaqa getmişdi. Soruşdu ki, ürəyin nə istəyir? Xəstə dedi ki, buğda çörəyi istəyirəm. Peyğəmbər (s) buyurdu ki, kimdə buğda çörəyi varsa ona versin. Sonra tövsiyə etdi ki, xəstəniz bir şey istəyəndə ona verin.

Sədəqə yaddan çıxmasın!

Həzrət Peyğəmbər (s) buyurur: Sədəqə bütün xəstəliklərin dərmanıdır. Xəstələrinizi sədəqə ilə sağaldın. Sədəqə xəstəlik və bəlaları üzaqlaşdırar.

Kəklikotu...

Həzrət Peyğəmbər (s) buyurur: Kəklikotu mədəni gücləndirir, bəlğəmi aradan qaldırır... Həzrət (s) buyurur ki, kəklikotu ləqvə deyilən xəstəliyin qarşısnı alınır. Ləqvə elə bir qəstəlikdir ki, insanın gicgahını boynuna tərəf əyir.

Əzxər otu...

Əzxər ətirli bir otdur, çubuqlarından bəzi şeylər də toxuyurlar. Meyvəsi olan əzxər də var. Rəngi qaradır, buğda kimi sümbülü olur. Həzrət Peyğəmbər (s) buyurur: Məkkədə heç bir ot-ələfi qırmaq olmaz. Əzxər istisnadır, çünki bu ot insanlara, onların evlərinə lazımdır.

Bitkişünaslar deyir ki, əzxər sidik gətirir, böyrək daşını əridir, mədə və qara ciyərdə yaraları yumşaldır. Ona ərəb ətiri də deyirlər. Hindlilər onu yeyir. Əzxərdən alınan yağ revmatizm xəstəliyinə xeyirlidir.

Esfəndin (üzərlik otu) möcüzəsi...

Zeyd ibn Əli ata babalarından nəql edir ki, Peyğəmbər (s) buyurur: Əgər əmr almış mələk onu bir yerə çatdırmasa, esfənd, onun budağı, yarpağı cücərməz. Onun yarpaq və dənlərində şəfa var, 70 xəstəliyə dərmandır. Onu kundurla birlikdə istifadə edin... Həzrət (s) buyurur: Kim qırx gün bir misqal esfəndi su ilə qəbul etsə qəlbində hikmət yaranar, 70 xəstəlikdən qurtular. Bu xəstəliyin kiçiyi cüzamdır.

Nar yeyin!

Həzrət Peyğəmbər (s) buyurur: Elə bir nar yoxdur ki, ondan behişdən bir dən olmasın. Mən onun bir dənəsini belə kənara qoymamaqda israrlıyam. Davud ibn Süleyman İmam Rizadan (ə) o da Peyğəmbərdən (s) nəql edir: Nar yeyin, onun hər giləsi mədəyə daxil olanda qəlb işıqlanır, şeytanı qırx gün bədəndən qovur... Həzrət Peyğəmbər (s) buyurur: Nar yeyənin qəlbi işıqlanar, vəsvəsə qırx gün ondan uzaq olar... İmam Sadiq (ə) ac qarına nar yeməyi tövsiyə edir.

Gözəl hədiyyə...

Əbuzər deyir ki, Həzrət Peyğəmbərə (s) əncir hədiyyə gətirmişdilər. Həzrət səhabələrinə əncir təklif edib buyurdu: Behiştdən bir meyvə gəldiyini deməli olsam deyərəm ki, bu meyvə əncirdir. Çünki tumu yoxdur. Əncir babasili sağaldır, başqa xəstəliklərə xeyirlidir... Həzrət (s) buyurur: Təzə və qurudulmuş əncir yeyin. O cinsi qabiliyyəti artırır, babasili sağaldır, soyuqluğa qarşıdır.

Bir gecə qızdırma...

İmam Sadiq (ə) İmam Baqirdən (ə), İmam Baqir İmam Səccaddan (ə), İmam Səccad İmam Hüseyndən (s), İmam Hüseyn İmam Əlidən (ə), İmam Əli (ə) də Peyğəmbərdən (s) nəql edir: Bir gecə qızdırmalı olmaq bir il günahın kəffarəsidir.

Süstlüyün çarəsi...

Həzrət Peyğəmbər (s) buyurur: Həzrət Nuh süstlük və zəiflikdən şikayətləndi. Allah-Taala buyurdu: Ey Nuh əti südlə bişir, ye. Mən onda güc və bərəkət qərar vermişəm.

Gözün zəifsə...

İmam Baqirin (ə) bele buyurduğu nqəl edilir: Peyğəmbərin (s) həyatı dövründə Əhli-beytdən (ə) kimin gözü zəifləsəydi Peyğəmbər (s) ona belə dua edərdi: “Pərvərdigara! Məni sevindir, eşitmə və görmədən bəhrələndir, onları varislərim üçün qərar ver, mənə zülm edənə qarşı yardımçı ol, qələbəyə çatdır.”

Göz üçün dərman...

Həzrət Əlinin (ə) belə buyurduğu nəql edilir: Bir gün Salman Farsi və Əbuzər Ğəffari göz ağrısından əziyyət çəkirdi. Peyğəmbər (s) onları yoxlamağa getdi. Həzrət (s) buyurdu: Allah sizə şəfa verənə qədər sol tərəf üstə yatmayın, xurma yeməyin.

Yuxuda qorxuya qarşı...

İmam Baqir (ə) buyrur: Yuxuda qorxan adam yatağa girəndə Fələq, Nas surələrini, ayətəl-kürsini oxusun... Peyğəmbər yatmazdan öncə ayətəl-kürsi oxuyardı. Həzrət (s) buyurur: Cəbrail mənə deyib ki, bir dəstə cin yatdığın zaman səni incitmək istəyir. Daim ayətəl-kürsi oxu. Həzrət Əli (ə) buyurur: Bir gün Həzrət Peyğəmbər (ə) məni çağırıb buyurdu: Ey Əli (ə) yatağa girəndə istiğfar et, mənə salavat göndər. Belə de: "Sübhanəllahi vəlhəmdulillahi və la ilahə illəllahu vəllahu əkbər, və la həvlə və la qüvvətə illa billahil-əliyyil-əzim." "İxlas" surəsini çox oxu, Ayətəl-kürsiyə əhəmiyyət ver, onu tərk etmə. Onun hər sözündə 1000 bərəkət və min rəhmət var.

Xəstəlik və yoxsulluğa qarşı...

İsmail ibn Əbdül-Xaliq deyir: Səhabələrdən biri bir müddət Peyğəmbərin (s) görüşünə gəlmədi. Görüşə gəldiyi zaman Peyğəmbər (s) bunun səbəbini soruşdu. Həmin şəxs yoxsulluq və xəstəliyi səbəb göstərdi. Həzrət (s)nbuyurdu ki, xəstəlik və yoxsulluğu səndən uzaqlaşdıracaq bu duanı oxu: "La həvlə və la qüvvətə illa billahi təvəkkəltu ələl-həyyilləzi la yəmut, vəlhəmdu lillahilləzi ləm yəttəxiz vəlada və lən yəkulləhu şərikun fil mulki və ləm yəkulləhu vəliyun minəzzulli və kəbbirhi təkbira" (Allahdan başqa təsirli bir qüvvə yoxdur, daim sağ olana təvəssül edirəm, ona ölümün yolu yoxdur. Sitayiş o Allah üçündür ki, özünə övlad qərar verməyib, hökmünə şərik yoxdur, ona hami olmaz, o çox böyükdür). Çox çəkmədi ki, həmin səhabə bu duanı oxuyub yoxsulluq və xəstəlikdən xilas oldu.

Bəla və çətinliyə qarşı...

Həzrət Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurdu: Çətinliyə düşdüyün zaman bu duanı oxu: "Bismillahir-rəhmanir-rəhim, la həvlə və la qüvvətə illa billahil-əliyyil-əzim, Allahummə iyyakə nəbubu və iyyakə nəstəin" (Bağışlayan və mehriban Allahın adı ilə, varlıq aləmində Allahdan başqa təsirli qüvvə yoxdr. Pərvərdigara! Yalnız Sənə pərəstiş edirəm, yalnız səndən kömək istəyirəm).

Yatmazdan qabaq dua...

Həzrət Peyğəmbər (s) yatmazdan qabaq Ayətəl-kürsi oxuyar sonra belə dua edərdi: Pərvərdigara! Sənin adınla Sənə iman gətirdim. Tağut və azğınlardan üz çevirmişəm! Pərvərdiğara yuxuda və oyaq ikən məni qoru.

Süfrənin bərəkətli olması üçün...

Həzrət Peyğəmbər (s) süfrənin bərəkətli olması üçün belə dua edirdi: “Pərvərdigara! Çörəyimizə bərəkət ver, bizimlə ruzi arasında ayrılıq salma”.

Tədrisdən öncə dua...

Bir mövzuda dərsə başlamaq istəyən Peyğəmbərdən (s) nəql olunmuş bu duanı oxusa faydalanar: “Pərvərdigara! Pərvərdigara azmaqdan və azdırmaqdan Sənə sığınıram, büdrəməkdən və büdrətməkdən zülm etmək və zülmə düçar olmaqdan, nadanlığa düşməkdən və nadanlığa çəkməkdən Sənə panah aparıram. Pərvərdigara! Kim Sənin civarına baş əydisə başı uca oldu. Adların müqəddəsdir. Sənə sitayiş əzəmətlidir. Səndən başqası ibadətə layiq deyil. Bütün ehtiyaclarımı ödəyən Allah mənə bəs edər. Özümü Ona tapşırıram, bütün ehtiyac və hərəkətlər onun qüdrət əli altındadır. O uca və böyükdür. Pərvərdigara! Qəlbimi möhkəm və sabit qərar ver. Dilimdən həqiqəti cari et”.

Səfərdə qorunmaq üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Müsafir və ailəsi üçün səfərdə ən üstün mühafiz budur ki, iki rəkət namaz qılıb bu duanı oxusun: Pərvərdigara! Özümü, ailəmi, malımı, övladlarımı, dünya və axirətimi, əmanətlərimi, aqibətimi sənə tapşırıram, Sənə əmanət verirəm”. Həzrət Peyğəmbər (s) buyurur: Kim bu işi görsə Allah ona istədiyini verər, özünü, ailəsini və həyat sərmayələrini qoruyar.

Vəhşi heyvan təhlükəsi...

Həzrət Peyğəmbər (s) buyurur: Kim vəhşi heyvanın hücumundan qorxsa bu ayəni oxusun: Ləqəd caəkum rəsulun min ənfusikum əzizun ələyhi ma ənittum hərisun ələykum bil-muminінə rəufun rəhim. (Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!/“Tövbə”, 128)

Minikdə qorunmaq üçün...

Miniyə süvar olan şəxs canını və miniyini qorumaq üçün bu duanı oxusun: “Bismillahi və la həvlə və la qüvvətə illa billah ələmdulillahilləzi hədana lihazə və sübhanəlləzi

səxxərə ləna haza və ma kunna ləhu muqrinin” (Allahın adı ilə, Allahdan başqa güc yoxdur. Həmd Allaha məxsusdur, məni bu vasitə ilə hidayət etdi. Bu miniyi mənə ram edən kəs pak-pakizədir. Yoxsa mənim onu ram etmək gücüm yox idi.)

Gözdəyməyə qarşı...

İmam Sadiq (ə) Həzrət Əlinin (ə) belə buyurduğunu nəql edir: Həzrət Peyğəmbər (s) Həsən (ə) və Hüseyni (ə) şərdən və bəladan qurtarmaq üçün bu duanı oxuyardı: “Sizi sığındırıram Allahın kəlmələri və gözəl adlarına... Hər zəhərli heyvan və həşəratlardan, bəd nəzərdən həsədin şərindən! Həzrət (s) buyurur: Həzrət İbrahim (s) İsmail (s) və İshaqı (s) bu dua ilə Allaha sığındırardı.

Sehr və şeytana qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Sehr və şeytandan qorxan şəxs bu ayəni oxusun: “İnnə rəbbəkumullahulləzi xələqəssəmavati vəl ərzə fi sittəti əyyamin summəstəva ələlərşi yudəbbiruləmrə ma min şəfiin illa min bədi iznihi zalikumullahu rəbbukum fəbuduhu əfəla təzəkkərun.” (Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşə üz tutan), hər işi yerinə qoyan (səhmana salan) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?/ Yunis, 3)

Yenə gözdəyməyə haqqında...

Peyğəmbərdən (s) rəvayət olunur ki, bir şeyi görəndə heyrətlənən və narahat olan insan zərəri uzaqlaşdırmaq üçün bu duanı oxusun: “Əllahussəməd, maşaəllah, La qüvvətə illa billah.”

Qorxu və həyəcana qarşı...

Bir şəxs Peyğəmbərə (s) qorxu və nigarançılıqdan şikayətləndi. Həzrət buyurdu ki, kim bu duanı davamlı şəkildə oxusa qorxu və nigarançılıq ondan uzaq olar: “Sübhanəllahil-məlikil-qudus, Rəbbil məlaikəti vərruhi xaliqissəmavati vələrz, zil-izzəti vəlcəbərut” (Malik və müqəddəs Allah pakdır, mələklər və ruhun rəbbidir, göylər və yerin xaliqidir, izzət və hökm sahibidir).

Bir daha misvak haqqında...

Həzrət Peyğəmbər (s) buyurur: Kim gündə bir dəfə misvak çəksə, Allah ondan razı qalar. Kim gündə iki dəfə misvak çəksə, peyğəmbərlərin sünnəsini yerinə yetirirb, Allah onun hər rəkət namazına yüz rəkətin savabını yazar, yoxsulluqdan uzaq olar.”

Çətinliyə qarşı istiğfar namazı...

Həzrət Peyğəmbər (s) buyurur: Əgər dolanışıqda çətinlik, işdə maneə yaransa Allaha dua et, istiğfar namazı qıl. Bu namaz iki rəkətdir. Birinci rəkətdə Həmd, Qədr, surələri oxunur, sonra 15 dəfə istiğfar edilir. Rükuda 10 istiğfar deyilir. Rükudan sonra, səcdədə, səcdədən sonra, ikinci səcdədə, ikinci səcdədən sonra 10 dəfə istiğfar edilir. İkinci rəkət də birinci rəkət kimidir. Bütün namazda 150 istiğfar var.

Təmizlik...

Həzrət Peyğəmbər (s) buyurur: Libaslarınızı yuyun, saçlarınızı qısaldın, misvak çəkin, zinətlənin, təmiz olun. Bəni-İsrail bu işləri görmədiyindən qadınları zina etdi.”

Qəm-qüssə xəstəlik yaradar...

Həzrət Peyğəmbər (s) buyurur: Əxlaqı pis olan özünə əzəb verir. Pərişanlığı çox olanın bədəni xəstələnir. Xalqla sərt davrananın şərafəti əldən çıxır. Beləsinin alicənablığı aradan qalxır... Həzrət (s) buyurur: Qəm-qüssə qocalığın yarısıdır. İnsan tez qocalır, süstləşir, beli əyilir, saçları ağarır.

Yenə sədəqə...

Həzrət Peyğəmbər (s) buyurur: Sübhü sədəqə ilə başlayın. Çünki bəlalar sədəqə sipərini aşa bilmir.

Yoxsulluq və xəstəlik günaha qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Allahdan yoxsulluq və xəstəlik gələndə bilin ki, günahlarınızı yumaq istəyir... Yenə buyurur: Möminin xəstəliyi onun günahlarının kəffarəsidir... Buyurur: Xəstəlik anları günahların yuyulduğu anlardır.

Bədən hərarətli olanda...

İnsan qızdırma keçirəndə onun günahları ağacdan yarpaqlar tökülən kimi tökülür... Qızdırma hər mömin üçün cəhənnəm odundan qurtuluşdur. Bir gecə qızdırma bir il günahların kəffarəsidir... Həzrət (s) buyurur: Qızdırma Allahın yer üzündə zindanıdır. Bəzən qızdırma ölümün başlanğıcı olur.

Hər zaman təmizlik!

Həzrət Peyğəmbər (s) buyurur: Həqiqətən İslam paklıqdır. Pak olun, yalnız pak insanlar behiştə daxil olar.

Saqqalınızı darayın!

Həzrət Peyğəmbər (s) buyurur: Saqqalınızı darayın, dırnaqlarınızı qısaldın. Şeytan tüklər və dırnaqlar altındadır.

Qəm-qüssəyə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Kim dünyada qəm-qüssə, çətinliklə qarşılaşsa belə dua etsin: “Allahu Rəbbi la uşriku bihi şəyən təvəkkəltu ələlhəyyilləzi la yəmut” Əllamə Mirza Məhəmməd Hüseyn (s) Naini zikir edir ki, rəvayətdə say bildirilməsə də bu duanın 40 dəfə oxunduqda qəbul olunması mənə sübuta yetib.

Evdən çıxanda...

Həzrət Peyğəmbər (s) buyurur: Evdən çıxan şəxs “Bismillah” desin. Mələklər ona salamatlıqla müjdələyər. “La həvlə və la qüvvətə illa billah” desə mələklər ona deyər ki, işlərin düzəldi. Təvəkkəltu ələllah deyəndə mələklər onu bəlalardan amanda qalması ilə müjdələyər.

Sehr-caduya qarşı...

Rəvayətdə deyilir ki, Cəbrail Peyğəmbərə (s) ona qarşı sehr edildiyini xəbər verdi. Peyğəmbər Əlini (ə) çağırıb buyurdu ki, filan quyuda sehr var, get onu gətir. Əmirəlmöminin (ə) deyilən yerə getdi, quyunun dibindən bir halğa tapıb onu Peyğəmbərə (s) gətirdi. Quyuda on bir düyün vurulmuş ip (“zihi”) vardı. Cəbrail “Nas” və “Fələq” surələrini gətirdi. Peyğəmbər buyurdu ki, Ya Əli, bu surələri düyünlərə oxu. Həzrət Əli (ə) hər ayəni oxuyanda bir düyün açılırdı. Surələr başa çatanda düyünlər açıldı və sehr batil oldu.

Gözün ağrayırsa...

Həzrət Peyğəmbər (s) buyurur ki, göz ağrıyanda bu duanı oxuyun: “Əllahummə məttəni bisəmi və bəsəri vəcəlha vəcəlhəl-varisəyni minni vənsurni əla mən zələməni və ərini fihi sari.”

Heyvanların dəliliyinə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Ya Əli! Heyvan dəlilik edəndə onun sol qulağına oxu: “Və ləhu əsləmu mən fissəmavati vələrzi təvən və kərəhən və iləyhi turcəun.”

Çətinlik zamanı...

Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Ya Əli (ə)! Bir şey səni qorxudanda ya çətinliklə rastlaşanda belə dua et: “Əllahummə inni əsalukə bihəqqi Muhəmmədin və ali Muhəmməd ən tusəlli əla Muhəmmədin və ali Muhəmməd və ən tuncini min hazəl ğəmm.”

Qızdırmaya qarşı...

Həzrət Peyğəmbər (s) Fatimənin (s) yanına gəldi və gördü ki, Həsən (s) qızdırıb. Cəbrail nazil oldu və dedi: “Ya Məhəmməd! Həsənin qızdırmasını aparacaq dua söyləyim? Həzrət (s) buyurdu ki, bu duanı öyrət! Cəbrail dedi: “Əllahummə la ilahə illa əntəl-əliyyil-əzim, və lil-kəlimatit-tammat, vəddəəvatil-mostəcabat, həll ma əsbəğə bifulan” (Fulan sözü yerinə qızdıran şəxsin adı çəkilir). Həzrət (s) bu duanı oxudu və əlini Həsənin (ə) başına çəkdi. Allahın lütfü ilə qızdırma aradan qalxdı.

Hakimdən qorxuya qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Başçı, hakimdən qorxu yarananda bu duanı oxusanız qurtularsınız. Məni haqq olaraq seçənə and olsun, nə vaxt bu duanı oxudumsa düşmənə qalib gəldim. Dua belədir: “Ya aliməl-ğuyubi vəssərairi ya mutaə ya əzizə ya əlimə ya haziməl-əhzabi li əhməd ya kaidə firəvnu limusa ya munci isa min əydizzulməti ya muxəlləsə nuhun minəl ğərqi ya qasidə kullə xəyr, ya zəlcəlali vəl ikram, ya xaliqəl xəyir, ya əhləl xəyr, rəğəbtu iləykə fi kəza və kəza (Kəza və kəza yerinə istəyini deyirsən) fəsəlli əllahummə əla Muhəmmədin və alihi və fərrəc ənni əğisni vəstəcibli vərhəmni ya ərhəmərrahimin.”

Diş ağrısına qarşı...

İbn Abbas Peyğəmbərin belə buyurduğunu (s) nəql edir. Dişi ağrıyan adam barmağını həmin dişin üzərinə qoyub bu iki ayəni yeddi dəfə oxusun. Ənam, 98: “Və huvəlləzi ənşəəkum min nəfsin vahidətin fəmustəqərrun və mustəvdəun qəd fəssəlnəl-ayati liqəvmin yəfqəhun.” (Sizi tək bir nəfərdən (Adəmdən) yaradan da Odur. (Sizin üçün) bir qərar yeri (ana bətni, ata beli və ya yer üzü), bir də bir əmanət yeri (qəbir) vardır. Biz ayələrimizi anlayan bir camaat üçün belə müfəssəl bəyan etdik); Mulk, 23: “...Huvəlləzi ənşəəkum vəcəələ ləkumussəmə vələbsarə vələfidətə qəlilən ma təşkurun.” (...Sizi yoxdan yaradan, sizə qulaq, göz və qəlb verən Odur. (Allahın nemətlərinə) nə az şükür edirsiniz!) Həqiqətən, Allahın izni ilə ağrı aradan qalxar.

Qorxuya qarşı...

Bir şəxs Peyğəmbərə (s) iztirab və qorxudan şikayətləndi. Həzrət Peyğəmbər (s) buyurdu: Kim bu duanı çox oxusa Allah onu qorxu və iztirabdan uzaqlaşdırar. Subhanəllahi rəbbil-mələkul-quddusu rəbbul-məlaikəti vərruh, xaliqussəmavati vələrzi zil izzəti vəlcəbərut".

Üzücü fikirlərə qarşı...

Həzrət Peyğəmbər (s) buyurur: Kim üzücü fikirlərə düçar olsa belə dua etsin: "Allahu Allahu Allahu Rəbbi La uşriku bihi şəyən təvəkkəltu ələl-həyyilləzi la yunamu və la yəmut". Başqa bir fərəc duası: "Ya mən yəkfi min kulli şəyin və la yəkfi minhu şəyun ikfini ma əhəmməni." Yəni, ey hər şeyə kifayət edən və heçnəyin kifayət etmədiyi, sən özün məni düşündürən şeyi sona çatdır.

Gün uzunu amanda qalmaq üçün...

Həzrət Peyğəmbər (s) buyurur: Kim sübh bu duanı oxusa gün başa çatana qədər heç bir bəla görməz. Hər kəs gecə bu duanı oxusa sübhə qədər bəladan amanda qalar. Dua belədir: "Bismillahilləzi la yəzurru məə ismihi şəyun filərzi və la fissəmai və huvəssəmiul-əlim. ( O Allahın adı ilə ki, adı ilə yerdə və göydə bir şey zərər göməz. O eşidən və biləndir).

Xəstəliyin dörd təsiri...

Həzrət Peyğəmbər (s) buyurur: Xəstə öz xəstəliyindən dörd səmərə görər: Üzərindən vəzifə götürülər, Allah mələklərə əmr edər ki, sağlamlıq vaxtı etdiyi işləri yazsınlar, günaha yol verib xəstələnmiş əzanın günahları silinər, xəstə ölsə bağışlanar, sağ qalsa günahları pozular.

Saçlara qulluq...

"Məkarimul-Əxlaq" kitabında yazılır ki, həzrət Peyğəmbər (s) güzgüyə baxıb saçını darayar, güzgü olmayanda suya baxıb bu işi görərdi. O təkcə ailəsi yox, səhabələri üçün də zinətlənərdi. Həzrət (s) buyurur: Allah istəyir ki, onun bəndəsi din qardaşı ilə görüş üçün evdən çıxanda zinətlənsin.

Nəql olunur ki, həzrət Peyğəmbər (s) saçını və saqqalını sidrlə yuyardı. Həzrət Əli (ə) buyurur: Peyğəmbər (s) daim saçını darayar, su ilə onu səliqəyə salardı. Buyurardı ki, saçı ətirləndirmək üçün su bəs edər.

Yatan zaman sürmə...

İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) yatan zaman gözlərinə sürmə (sürmeyi-səng) çəkirdi. Yatmazdan öncə dörd dəfə sağ, üç dəfə sol gözünə sürmə vurardı. Başqa bir hədisdə deyilir ki, Peyğəmbərin (s) xüsusi sürmə qabı var idi. Hər gecə gözünə bu sürmədən vurardı. “Sunənun-Nəbiyy” kitabının müəllifi yazır ki, Peyğəmbərin (s) gözünə neçə dəfə sürmə çəkməsi barədə fərqli xəbərlər var. Buna görə də bu işin sayı yox, özü sünnə sayılmalıdır.

Belağrıya qarşı...

İmam Sadiq (ə) buyurur: Peyğəmbər bel ağrısından əziyyət çəkdiyi zaman Allah ona göstəriş verdi ki, buğda ilə əti bişirib yesin.

Xoş qoxu...

İmam Sadiq (ə) buyurur: Peyğəmbərin (s) müşk qabı vardı. Hər dəstəmazdan sonra ətirlənirdi. Evdən çıxanda keçədən xoş ətir qoxusu gəlirdi. Ona ətir təklif edəndə qəbul edər və buyurardı: Qoxusu gözəl özü yüngüldür. (Gəzdirmək asandır) Ətirlənmək üçün üzrü olanda təkcə barmağının başına ətir vurardı.

Peyğəmbərin (s) ən çox sevdiyi ətir müşk idi. İmam Sadiq (ə) buyurur ki, Peyğəmbər (s) təamdan çox ətirə pul verirdi.

Necə yemək?

İmam Sadiq (ə) buyurur: Allah cəddimi Peyğəmbər (s) seçdiyi gündən o Həzrət (s) ömrünün sonuna qədər söykənmiş vəziyyətdə yemək yemədi. Həmişə qul kimi oturar, qul kimi yeyərdi. Bununla Allah qarşısında təvazösünü bildirərdi.

Həzrət (s) yemək zamanı namazdakı kimi iki dizi üstə oturardı. Deyərdi ki, mən bəndəyəm, bəndə kimi otururb, bəndə kimi yeyirəm. Həzrət Əli (ə) buyurur: Həzrət Peyğəmbər (s) süfrə kənarında qullar kimi əyləşərdi. Sol ayağına ağırlıq salardı... İmam Sadiq (ə) buyur: Allahın rəsulu qullar kimi əyləşərdi, əlini yerə qoyardı, üç barmağı ilə yeyərdi. O təkəbbürlü hakimlər kimi iki barmağı ilə tikə gətürməzdi. Nəql olunur ki, Peyğəmbər (s) nar yeyəndə onu tam şəkildə yeyər və bunu tövsiyə edərdi. İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) başqaları ilə süfrəyə əyləşəndə onların rahat yeməsi üçün süfrəyə əlini birinci uzadar, süfrədən əlini sonda çəkərdi.

Neysan suyu...

Seyid ibn Tavus deyir: “Zadul-Abidin” kitabında rəvayətçi nəql edir ki, atam Əbülfütuh (r) vasitə ilə Abdullah ibn Ömərdən nəql edir: Biz əyləşmişdik, Peyğəmbər (s) oraya gəldi. Salam verdi. Biz də salamına cavab verdik. Buyurdu ki, sizə elə bir şey tanıtdırım ki, dava-dərmana ehtiyacınız qalmasın. Rum təqvimi ilə Neysan ayında yağış suyunu yığın, ona yetmiş dəfə “Həmd”, “Ayətəl-Kürsi”, “Tövhid”, “Fələq”, “Nas”, “Kafirun”, “Qədr”, “Əllahu-Əkbər”, “La ilahə milləllah”, “salavat” oxuyun, Həmin suyu yeddi gün gecə və gündüz için.

İnsan və cinin şərinə qarşı...

İnsan və cinin şərindən amanda qalmaq üçün bu duanı oxuyun: “Bismillahir-Rəhmanır-Rəhim, La ilahə illəllahu ələyhi təvəkkəltu və huvə rəbbul-ərşil-əzim. Maşaəllahu kanə və ma ləm yəşa ləm yəkun əşhədu innəlahə əla kulli şəyin qədir və innəllahə qəd əhatə bikulli şəyin ilma. Əllahummə inni əuzu bikə min şərri nəfsi və min şərri kulli dabbətin əntə axizun binasiyətiha innə rəbbi əla siratin mustəqim” (Bağışlayan və mehriban Allahın adı ilə. Allahdan başqa məbud yoxdur. Ona təvəkkül etmişəm Odur uca ərşin Rəbbi. Allahın istədiyi olacaq, onun istəmədiyi olmayacaq. Şəhadət verirəm ki, Allah hər şeyə qadirdir. Elmi hər şeyi əhatə edir. Pərvərdigara! Həqiqətən öz nəfsimin və hər canlının şərindən Sənə sığınıram. Həqiqətən Allahın yolu doğru yoldur).

Peyğəmbərin (s) dua-zirehi

Rəvayətlərdə nəql olunur ki, həzrət Amənə Peyğəmbərə (s) hamilə olduğunu bildiyi zaman ona yuxuda deyilmişdi: "Sən insanların ən üstününə hamilə olmusan. Onun adını Tövratdakı kimi Əhməd qoy və bu yazını onun ütündə gəzdir. Amənə yuxudan ayılanda yanında üstü yazılı bir parça gördü. Dəri üzərində yazılmışdı: "Bismillahi əstərikə Rəbbəkə və əuzikə bilvahidi min şərrə kulli hasidin qaimin əv qaidin və kulli xəlqin zaidin fi turuqil-məvaridil-ətəzurruhu fi yəqzətin vəla mənamin və la fi zənin və la fi muqamin səcisəl ləyali və əvaxirəl-əyami yədullahi fəvqə əydihim və hicabullahi fəvqi aditihim" (Allahın adı ilə Rəbbini sənə sipər və mühafiz seçirəm. Bütün həsəd aparanların ayaq üstə və oturaq vəziyyətdə şərindən, bütün ovçuların tələsindən sən pənah aparıram. Oyaq vəziyyətdə, yatdığı zaman, gecə və gündüz Allahın əli onun üzərindədir...)

Çətinlik zamanı Peyğəmbərin (s) dua-zirehi...

Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Ya Əli! Bir əmr ya hadisə səbəbindən ölüm sorağına gəlsə, ya çətinliyə düşsən bu duanı oxu: Allahumə inni əsəlukə bihəqq muhəmmədin və li muhəmmd ən tusəlli əla muhəmmədin və ali muhəmməd və ən tuncini min hazəl-ğəmm."

Peyğəmbərin (s) şərə qarşı duası...

Həzrət Peyğəmbər (s) buyurur: Kim Allahı bu adlarla çağırsa duası qəbul olar. Bu adların oxunduğu dəmir Allahın izni ilə əriyər. And olsun məni haqq olaraq elçi göndərən Allaha! Kimə aclıq və susuzluq üz versə, bu şəxs Allahı həmin adlarla çağırsa aclığı və susuzluğu yatar. And olsun Məni haqq olara peyğəmbər göndərənə! Bir kəs çatmaq istədiyi məqsədə aparan yolu dağ kəsən zaman bu adları oxusa dağlar ovular, yol açılar. And olsun məni haqq-ədalət olaraq peyğəmbər göndərənə! Kim bu duanı ağılını itirənə oxusa dəlilikdən qurtarar. Bu duanı doğuşu çətin olan qadına oxusalar doğuşu asanlaşar. Bir şəhər yansa və evi odla əhatələnmiş şəxs bu duanı oxusa evi oddan qorunar. Kimm bu duanı qırx cümə axşamı oxusa nə qədər böyük günahı olsa bağışlanar. And olsun məni haqq olaraq göndərənə! Kim pərişan ikən bu duanı oxusa Allah onun dünya və axirət qəmlərini dağıdar. And olsun məni haqq olaraq peyğəmbər seçənə! Kim bu duanı zalım padşahın hüzuruna daxil olmazdan qabaq oxusa Allah padşahı ram edər, padşah həmin şəxsə tabe olar. Şərif dua budur:

Bismillahi-Rəhmanir-Rəhim

Əllahummə inni əsələkə ya mənihtəcəbə bişüai nurihi ən nəvaziri xəlqihi

ya mən təsərbəl bil-cəlali vəl-əzəməti vəştəhərə bittəcəbbəri fi qudsihi

ya mən təali bil-cəlali vəl-kibriyai fi təfərrudi məcdi

ya məninqadətil-umuri bi əzimmətiha təv-ən liəmrihi

ya mən qamətissəmavati vəl-ərzunə mucibatin liddəvəti

ya mən zəynəs-səmaə bin-nucumit-taliəti və cəələha haditən lixəlqi

ya mən ənarəl-qəmərəl-munirə fi səvadil-ləylil-muzlimi bilutfihi

ya mən ənarəş-şəmsəl-munirətə və cəələha məaşən lixəlqihi və cəələha mufərriqətən bəyəl-ləyli vən-nəhari biəzəməti. Ya mən istəvcəbəş-şukrə binəşri səhaibi niəmihi əsələkə biməqaidil-izzə min ərşikə və muntəhər-rəhməti min kitabikə və bi kulli ismin huvə ləkə səmməytə bihi nəfsəkə əv istəsərtə bihi fi ilmil-ğəybi indəkə və bikulli ismin huvə ləkə ənzəltəhu fi kitabikə əv əsbəttəhu fi qulubis-safinəl-haffinə həvlə ərşikə fətəracəətil-qulubu iləs-suduri ənil-bəyani biixlasil-vəhdaniyyəti və təhqiqil fərdaniyyəti muqirrətən ləkə bil məbudiyyəti və innəkə əntə əllah əntə əlllah əntə əllah la ilahə illa əntə və əsələkə bil-əsmail-ləti təcəlləytə biha lil-kəlim ələl cəbəlil əzim fələmma bəda şuau nuril-hucubi min bəhail-əzəməti xərrətil-cibalu mutədəkdikətən li əzəmətikə və cəlalikə və həybətikə və xəvfən min sətvətikə rahibətən minkə fəla ilahə illa əntə fəla ilahə illa əntə fəla ilahə illa əntə və əsələkə bil-ismil-ləzi fətəqtə bihi rətqə əzimi cufuni uyunin-nazirinəl-ləzi bihi tədbiri hikmətikə və şəvahidu hucəci ənbiyaikə yərifunəkə bifitənil qulubi və əntə fi ğəvamizi musirrati səriratil-ğuyubi əsələkə biizzəti zalikəl-ismi ən tusəlli əla muhəmmədin və ali muhəmməd və ən təsrifə ənni və ən əhli huzanəti və cəmiil-mumininə vəl-muminati cəmiəl afati vəl-ahati vəl-ərazi vəl-əmrazi vəl-xətaya vəz-zunubi vəşşəkki vəşşirki vəlkufri vəşşiqaqə vənnifaqə vəzzələləti vəlcəhli vəlməqti vəlğəzəbi vəlusri vəzziqi vəfəsadiz-zəmiri və hululin-niqməti və şəmatətil ədai və ğələbətil-ricali innəkə səmiud-duai lətifun li ma təşau və la həvlə və la qüvvətə illa billahil-əliyul-əzim.

اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ يَا مَنِ احْتَجَبَ بِشُعَاعِ نُورِهِ عَنْ نَوَاظِرِ خَلْقِهِ يَا مَنْ تَسَرْبَلَ بِالْجَلَالِ وَ الْعَظَمَةِ وَ اشْتَهَرَ بِالتَّجَبُّرِ فِى قُدْسِهِ يَا مَنْ تَعَالَى بِالْجَلَالِ وَ الْكِبْرِيَاءِ فِى تَفَرُّدِ مَجْدِهِ يَا مَنِ انْقَادَتِ الْأُمُورُ بِأَزِمَّتِهَا طَوْعاً لِأَمْرِهِ يَا مَنْ قَامَتِ السَّمَاوَاتُ وَ الْأَرَضُونَ مُجِيبَاتٍ لِدَعْوَتِهِ يَا مَنْ زَيَّنَ السَّمَاءَ بِالنُّجُومِ الطَّالِعَةِ وَ جَعَلَهَا هَادِيَةً لِخَلْقِهِ يَا مَنْ أَنَارَ الْقَمَرَ الْمُنِيرَ فِى سَوَادِ اللَّيْلِ الْمُظْلِمِ بِلُطْفِهِ يَا مَنْ أَنَارَ الشَّمْسَ الْمُنِيرَةَ وَ جَعَلَهَا مَعَاشاً لِخَلْقِهِ وَ جَعَلَهَا مُفَرِّقَةً بَيْنَ اللَّيْلِ وَ النَّهَارِ بِعَظَمَتِهِ يَا مَنِ اسْتَوْجَبَ الشُّكْرَ بِنَشْرِ سَحَائِبِ نِعَمِهِ

أَسْأَلُكَ بِمَعَاقِدِ الْعِزِّ مِنْ عَرْشِكَ وَ مُنْتَهَى الرَّحْمَةِ مِنْ كِتَابِكَ وَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ سَمَّيْتَ بِهِ نَفْسَكَ أَوِ اسْتَأْثَرْتَ بِهِ فِى عِلْمِ الْغَيْبِ عِنْدَكَ وَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ أَنْزَلْتَهُ فِى كِتَابِكَ أَوْ أَثْبَتَّهُ فِى قُلُوبِ الصَّافِّينَ الْحَافِّينَ حَوْلَ عَرْشِكَ فَتَرَاجَعَتِ الْقُلُوبُ إِلَى الصُّدُورِ عَنِ الْبَيَانِ بِإِخْلَاصِ الْوَحْدَانِيَّةِ وَ تَحْقِيقِ الْفَرْدَانِيَّةِ مُقِرَّةً لَكَ بِالْمَعْبُودِيَّةِ وَ إِنَّكَ أَنْتَ اللَّهُ أَنْتَ اللَّهُ أَنْتَ اللَّهُ لَا إِلَهَ إِلَّا أَنْتَ وَ أَسْأَلُكَ بِالْأَسْمَاءِ الَّتِى تَجَلَّيْتَ بِهَا لِلْكَلِيمِ عَلَى الْجَبَلِ الْعَظِيمِ فَلَمَّا بَدَا شُعَاعُ نُورِ الْحُجُبِ مِنْ بَهَاءِ الْعَظَمَةِ خَرَّتِ الْجِبَالُ مُتَدَكْدِكَةً لِعَظَمَتِكَ وَ جَلَالِكَ وَ هَيْبَتِكَ-وَ خَوْفاً مِنْ سَطْوَتِكَ رَاهِبَةً مِنْكَ فَلَا إِلَهَ إِلَّا أَنْتَ فَلَا إِلَهَ إِلَّا أَنْتَ فَلَا إِلَهَ إِلَّا أَنْتَ وَ أَسْأَلُكَ بِالاسْمِ الَّذِى فَتَقْتَ بِهِ رَتْقَ عَظِيمِ جُفُونِ عُيُونِ النَّاظِرِينَ الَّذِى بِهِ تَدْبِيرُ حِكْمَتِكَ وَ شَوَاهِدُ حُجَجِ أَنْبِيَائِكَ يَعْرِفُونَكَ بِفِطَنِ الْقُلُوبِ وَ أَنْتَ فِى غَوَامِضِ مُسَرَّاتِ سَرِيرَاتِ الْغُيُوبِ أَسْأَلُكَ بِعِزَّةِ ذَلِكَ الِاسْمِ أَنْ تُصَلِّيَ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ أَنْ تَصْرِفَ عَنِّى وَ عَنْ أَهْلِ حُزَانَتِى وَ جَمِيعِ الْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ جَمِيعَ الْآفَاتِ وَ الْعَاهَاتِ وَ الْأَعْرَاضِ وَ الْأَمْرَاضِ وَ الْخَطَايَا وَ الذُّنُوبِ وَ الشَّكِّ وَ الشِّرْكِ وَ الْكُفْرِ وَ الشِّقَاقِ وَ النِّفَاقِ وَ الضَّلَالَةِ وَ الْجَهْلِ وَ الْمَقْتِ وَ الْغَضَبِ وَ الْعُسْرِ وَ الضِّيقِ وَ فَسَادِ الضَّمِيرِ وَ حُلُولِ النَّقِمَةِ وَ شَمَاتَةِ الْأَعْدَاءِ وَ غَلَبَةِ الرِّجَالِ- إِنَّكَ سَمِيعُ الدُّعَاءِ لَطِيفٌ لِمَا تَشَاءُ وَ لَا حَوْلَ وَ لَا قُوَّةَ إِلَّا بِاللَّهِ الْعَلِيِّ الْعَظِيمِ